İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT

UOT: 39. 003

TÜRK FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNÜN AZƏRBAYCAN QƏDİM YAZI MƏDƏNİYYƏTİNDƏ ƏKSİ

Mirvari İsmayılova
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji Mərkəz
Bakı, Azərbaycan
ismayilova.mirvari1960@gmail.com
orcid: 0000-0002-2085-544X

Xülasə

Ayrı-ayrı dövrlərdə olan yazı növlərini və bunların inkişafını tədqiq etməyin bəşər sivilizasiyasının, cəmiyyətinin inkişaf tarixini öyrənmək üçün böyük əhəmiyyəti var. Yaranma tarixi, forma və səbəblərindən asılı olmayaraq qədim yazılar müasir dövrdə istifadə etdiyimiz müxtəlif yazı sistemlərinin əcdadı sayıla bilər. Azərbaycan ərazisində qədim tarixə malik əlifbanın mövcudluğu elmdə təsdiq olunmuş faktdır. Türklərin ilkin beşiyi Ön Asiya – Azərbaycanda qədim yazı nümunələrinə hər yerdə rast gəlmək olur. Azərbaycanda yüksək inkişaf səviyyəsinə çatmış yazı – həkketmə mədəniyyətinin fərqli üsullarına, oyma (qazıma) və qabartma üsullarına rast gəlinir. Bu yazı – həkketmə mədəniyyətinin Azərbaycanda çox qədimdən yüksək inkişafının göstəricisidir. Qobustan və Gəmiqayada qədim əlifba işarələrinin aşkar edilməsi onu piktoqrafik yazı sırasından çıxarmağa əsas verir. Məqalədə Gəmiqaya-Qobustan əlifbası ilə Orxon-Yenisey əlifbalarının müqayisəsi də maraqlıdır. Orxon-Yenisey yazısı türk həyat tərzinin, cəngavərlik rəmzinin simvolunu (çadır, yay, ox, süngü, qılınc) təsvir edən işarələr, Gəmiqaya-Qobustan yazıları isə fəlsəfi düşüncə, inam, etiqadı simvollaşdıran işarələr əsasında yaranıb. Bu sirlərlə dolu möcüzə bizim dilimizin səslərinin ahəngində, musiqidə, memarlıqda, xalçaçılıqda, rəqslərdə əks olunub. Yalnız türk düşüncəsinin genetik daşıyıcıları olan xalq bu gizli kodları – piktoqrafları, yazı işarələrini, səslərin harmoniyasını, ecazkar musiqini – muğamlarımızı, xalçalarımızdakı naxışların sirlərini, rəqslərimizdəki mənanı duya bilər. Müasir dövrümüzdə xalçalarımız, rəqslərimiz gen yaddaşımızın, etnik düşüncə və soykökümüzün sirli möcüzələri olan naxışları və yazı işarələrini özündə yaşadan və təbliğ edən ecazkar qüvvədir.

Açar sözlər: Azərbaycan yazı mədəniyyəti, türk fəlsəfi dünyagörüşü, Qobustan, Gəmiqaya yazıları, piktoqraflar, əlifba

REFLECTİON OF THE TURKİSH PHİLOSOPHİCAL WORLDVİEW IN ANCİENT AZERBAİJANİ WRİTTEN CULTURE

Mirvari İsmayilova
Doktor of philological sciences, professor
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan

Summary

The study of writing types and their development in different periods is the great importance for exploring the history of developing human civilization and society. Ancient writings, regardless of the occurrence date, form and reasons, can be considered the progenitor of various writing systems, that we use inmodern period. An alphabit existence with ancient history, on the territory of Azerbaijan is a fact confirmed by science.First cradl of Turrks - forepart Asia - in Azerbaijan, examples of ancient writing can be found everywhere. In Azerbaijan, writing has reached to the high level of developing - various methods of carving culture, and methods of engraving is met also.Since ancient times,this writing - is an indicator of the high developing culture of carving culture in Azerbaijan.Discovery of ancient alphabetic signs gives

grounds excluding it from the series of pictographic writings in Gobustan and Gamigai.Compraing the alphabet of Orkhon-Yenisei with the Gamigaya-Gobustan alphabet is also very interesting in the article.Orkhon-Yenisei inscription of Turkish life, symbol of chivalry (tent, bow, arrow, bayonet, sword) descriptiving signs,the works of Gamigai-Gobustan represent philosophical thought, faith is based on signs that symbolize faith.This miracle,which full of secretsis reflected in the harmony of our language, in wonderful music- our mugams, architecture, carpet-weaving, and in dances.Only people - who are genetic carriers of Turkish thought, these secret codes - pictograms, written signs, harmony of sounds,wonderful music - our mugams, the secrets of the patterns on our carpets, it can feel the meaning in our dances.Nowadays our carpets,our dances are our genetic memory, ethnic thinking and our origins patterns with mysterious miracles, which keeps written signs alive , and is the wonderful power,that was preached.

Key words: culture of Azerbaijani writing, Turkic philosophical worldview, Gobustan, Gamigai inscriptions, pictograms, alphabet.

ТЮРКСКОЕ ФИЛОСОФСКОЕ МИРОВОЗРЕНИЕ В ДРЕВНЕЙ АЗЕРБАЙДЖАНСКОЙ ПИСМЕННОЙ КУЛЬТУРЕ

Мирвари Исмайлова
Доктор филологических наук, профессор
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан

Резюме

Изучение видов письма в отдельные периоды и их развитие имеет большое значение для изучения истории развития человеческой цивилизации, общества. Независимо от истории, формы и причин возникновения, древнее письмо можно считать предком различных систем письма, которые мы используем в наше время. Существование на территории Азербайджана алфавита, имеющего древнюю историю, является подтвержденным наукой фактом. Первоначальная колыбель тюрков Передняя Азия – в Азербайджане повсеместно можно встретить образцы древней письменности. В Азербайджане встречаются различные приемы письменно – граверной культуры, достигшие высокого уровня развития, способы резьбы и тиснения. Эта надпись – показатель высокого развития культуры гравюры в Азербайджане с глубокой древности. Обнаружение знаков древнего алфавита в Гобустане и Кемигае дает основание исключить его из порядка пиктографического письма. В статье сравнивается Гамигая-Гобустанский алфавит с Орхонско-Енисейским алфавитом и это очень интересно. Орхонско-Енисейская письменность создана на основе символов, изображающих турецкий образ жизни, символ рыцарства (палатка, лук, стрела, штык, меч), а Гамигая-Гобустанские надписи созданы на основе символов, символизирующих философские мысль, вера и убеждение. Это загадочное чудо отражается в гармонии звуков нашего языка, в музыке, архитектуре, ковроткачестве и танцах. Только люди, являющиеся генетическими носителями турецкой мысли, могут услышать эти скрытые коды-пиктограммы, письменные знаки, гармонию звуков, чудесную музыку- наши мугамы, тайны узоров на наших коврах, смысл наших танцев. В наше время наши ковры, наши танцы, наша генетическая память, наша этническая мысль - это чудесная сила, которая поддерживает и распространяет узоры и письменные знаки, которые являются таинственными чудесами наших предков.

Ключевые слова: культура Азербайджанской письменности, тюрское философский мировоззрение, Гамигая-Гобустанские надписи, пиктограммы, алфавит.

Aktuallıq. Əsrlər boyu insanların əldə etdiyi mədəni mirasların tarix səhifələrində əks olunmasında və qorunub saxlanmasında yazı başlıca rol oynamışdır. Cəmiyyətin bütün inkişaf prosesində yaradılmış nailiyyətlər yazı vasitəsilə bizə gəlib çatmışdır. Yazı sözün, dilin yaranma prosesinin davamıdır. İlk söz kimi ilk işarə çox çətin formalaşmışdır. Bunların yaranması insanın kamilləşməsi uğrunda mübarizəsinin nəticəsidir. Yazı şifahi sözün əbədiləşdirilməsi zərurətindən doğmuşdur və burada kollektivin rolu böyükdür. Yazının meydana gəlməsi müxtəlif insan cəmiyyətlərində eyni vaxtda baş verməmişdir. B.N. Qolovin yazının meydana gəlməsini insanların müəyyən zaman, məsafə ölçüsündə, ünsiyyət yaratmaq tələbləri əsasında meydana gəldiyini bildirir. Tarixən yazının müxtəlif növləri olmuşdur. Həmin yazı növləri bunlardır: 1. Şəkli yazı (piktoqrafik). 2. Fikri yazı (ideoqrafik). 3. Heca yazısı (silloqrafik). 4. Səs yazısı (fonoqrafik).

Annotasiya. Yazı sözün, dilin yaranma prosesinin davamıdır. İlk söz kimi ilk işarə çox çətin formalaşmışdır. Bunların yaranması insanın kamilləşməsi uğrunda mübarizəsinin nəticəsidir. Yazının meydana gəlməsi müxtəlif insan cəmiyyətlərində eyni vaxtda baş verməmişdir. Ayrı- ayrı dövrlərdə olan yazı növlərini və bunların inkişafini tədqiq etməyin bəşər sivilizasiyasının, cəmiyyətinin inkişaf tarixini öyrənmək üçün böyük əhəmiyyəti var.

Metod. Məqalədə tarixi-müqayisəli, təsviri və qarşılaşdırma metodlarından istifadə olunmuşdur.

Giriş. Yazının yaranma tarixi çox qədim dövrlərə gedib çıxır. Onun əlifbadan əvvəlki dövrü piktoqrafik və ideoqrafik yazı ilə seçilir. İlk yazılarda müxtəlif şəkil və simvollar əsasında formalaşdırılan təsvir vasitəsi ilə müəyyən məlumatlar yazıya köçürülmüşdür. Belə məlumatları yazıya çevirməyin səbəbi nitqi şəkil və simvollarla canlandırma deyil, baş vermiş hadisələri yadda saxlamaq zərurəti olmuşdur. Azərbaycanda piktoqrafik yazı nümunələri Qobustanda, Qazaxda, Gədəbəydə, Naxçıvanda və s. qeydə alınmışdır. Təkcə Qobustanda 720 qayaüstü rəsmdə dörd mindən çox təsvir vardır. Yaranma tarixi, forma və səbəblərindən asılı olmayaraq qədim yazılar müasir dövrdə istifadə etdiyimiz müxtəlif yazı sistemlərinin əcdadı sayıla bilər.

Qobustan

Gəmiqaya qayaüstü yazıları

Azərbaycan ərazisində daha qədim tarixə malik əlifbanın mövcudluğu elmdə təsdiq olunmuş faktdır. Q.Voroşil erkən orta əsr mənbələrində bizim eranın 6-cı əsrinin əvvəllərində aran (Azərbaycan) yepiskopu Kardastın Şimali Azərbaycan və Cənubi-qərbi Dağıstan hunları üçün türk yazısını yaratmasının qeyd olunmasını göstərir [7,76]. Bu fakt A.M.Şerbakın və A.N.Kononovun əsərlərində də səslənmişdir [8, 81; 9, 7].

1970-ci ildə Dağıstan ərazisində üstü yazılı yastı daş tapılmışdır. Daşın hər iki tərəfində yazılar vardır. Bu yazılar əlifba hərflərinin işarələri şəklindədir. Eramızın III-VII əsrlərinə aid edilən bu yazılı abidə üzərində Azərbaycanda istifadə olunmuş əlifbanın 44 işarəsi həkk olunmuşdur. Qeyd

etmək lazımdır ki, bu işarələr 1948-1952-ci illərdə Mingəçevir Su Elektrik Stansiyasının tikintisində torpaq işlərinin görülməsi zamanı tapılmış, eramızın V-VII əsrlərinə aid edilən səkkiz epiqrafik abidədəki işarələrlə oxşardır. Bu da Azərbaycan və indiki Dağıstan ərazilərində hələ eramızın V əsrində istifadə olunmuş qədim əlifba haqqındakı faktların doğruluğunu bir daha təsdiq edir [10, 130-131].

Yazı formalarının təkamülü göstərir ki, "Nitqi ötürmək üçün qrafik işarələr sisteminin yaradılması bəşər mədəniyyətinin universialiyalarından biridir. Söz – heca yazıları müxtəlif insan qrupları tərəfindən, dəfələrlə, fərqli vaxtlarda yaradılmış olsa da, onların işlənib hazırlanması bu və digər dərəcədə eyni üsullarla baş vermişdir" [23, 6]. Məsələn, Kəlbəcər qayalarındakı piktoqrafik yazılarda bir neçə keçi, dinozavr və başqa naməlum heyvan fiqurları, at fiqurunun üstündə və b. təsvirlərdə piktoqrafik-yazı işarələri də həkk edilmişdir. Bunlar Gəmiqaya, Qobustandakı təsvir və işarələrin eynidir. Piktoqraflar arasında dinozavr rəsminin aşkar edilməsi, piktoqrafların yaşını 10 – 12 min il keçmişə aparır. Dinozavrların nəsli buzlaşmanın son dövründə dünya daşqınından sonra yer üzündən silinmişdir. Naxçıvan – Gəmiqaya və Qobustan abidələrinin bir qismi dünya daşqınından əvvəl, yəni 20 – 30 min ilin, bir qismi isə daşqından sonrakı dövrün abidələridir. Yazı sisteminin təkamülündə diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, "şəkillərdən başlanan yazılar tədricən həndəsi fiqur və elementlərin istifadə olunması ilə düzələn hərflər şəklinə gəlib çıxmışdır. İlkin dövrdə müxtəlif ölçülü düz xətt parçalarının birləşdirilməsi əsas götürülmüşdür. Yazıda daha çox hərfdən istifadə etməmək, hərflərin mürəkkəbliyinin qarşısını almaq məqsədilə qrafemlərdən sonralar əyri xətt, dairə, yarımdairə, ellipsvari elementlərindən istifadə olunmuşdur" [17, 3;4]. Aydındır ki, dildəki hecalar səslərdən qat-qat çoxdur. Işarənin hecaya uyğunluğu əsasında yerinə yetirilmiş yazılara heca yazısı, sillaboqrafik yazı deyilir. Sillaboqrafik yazının ən qədim nümunələrindən biri şumer yazılarıdır.

Amerikalı alim, məşhur şumeroloq S.Kramer söyləyir ki, tarixdə ilk dəfə olaraq Şumerdə insana öz işlərini, fikirlərini və ümidlərini, mühakimə və inanclarını ətraflı və etibarlı əks etdirmək imkanı verən yazı inkişaf etdi, yazını "yaş gil üzərində qamış çiling ilə yazırdılar" [27, 3].

"Mixi yazının kəşfi və onun təkmilləşdirilməsi Şumerin bəşər tarixinə ən önəmli töhfəsi oldu. İlk yazılı abidələr qədim Şumer şəhəri Urukun xarabalıqları arasında aşkar olundu. Orada üzləri şəkilli yazı ilə örtülmüş mindən çox gil lövhəcik tapıldı. Onlar əsasən təsərrüfat və inzibatçılıq yazılarından ibarət idi. Amma onların arasında bir neçə tədris mətnlərinin də olduğu müəyyən edildi. Bu onu sübut edir ki, Şumer mirzələri artıq miladdan əvvəl ən azı 3000 il öncə təlim məsələləri ilə məşğul olurdular" [27, 26]. İngilis alimi L.Bulli: "Misir, Babil, Assuriya, Finikiya, qədim yəhudi və nəhayət, yunan mədəniyyətlərinin mənbəyinin də Şumerdə axtarmaq lazım olduğunu" [20,8]; Polşa alimi Z. Kosidovski: " yəhudi mədəniyyətinin Yunanıstana yox, bir çox məsələdə özlərini beş min il bundan əvvəlki Şumer xalqının yaratdığı mədəniyyətə borclu hesab etdiyini" söyləmişdir [28,25]. Yazı insanlığa əbədi töhfədir. Yazının kəşfi bəşər tarixinin böyük nailiyyətidir. Bu kəşf bəşər sivilizasiyasında mühüm bir başlanğıc oldu. Dünyada tanınmış alim və səyyah T.Heyerdal belə bir fikir söyləmişdir: "Qobustan və şumerli türk (şumer) mədəniyyəti eyni xalqa Azərbaycan xalqına məxsusdur". T.Heyerdalın başqa bir fikrini də xatırlamaq yerinə düşərdi: "Azərbaycanın hələ kifayət qədər öyrənilməmiş mədəniyyəti Mesopatomiyadan qat-qat qədimdir". Mesopotamiyada tapılan Kutu çarı deyilən hökmdarın kəlləsi üzərində fransız antropoloqlarının (T.Aminin rəhbərliyi ilə) tədqiqatlarından aydın olur ki, Kuti çarının antropologiyası və morfologiyası Şuşa azərbaycanlılarının antropologiyası və morfologiyası ilə tam üst-üstə düşür. Qədim şumerlərin yaratdığı doqquz qəhrəmanlıq dastanı məlumdur. Bu dastanların çoxu qədim Azərbaycan dövləti Aratta ilə bağlıdır. Dastan qəhrəmanlarından En–Merkar, Luqalbanda, Bilqamus tarixi şəxsiyyətlərdir və onlar indiki Azərbaycanla bağlıdır. E. Əlibəyzadə yazır: "Təkcə, "Bilqamus" dastanında özünü göstərən başqa mənəvi keyfiyyətlər bir yana, üç mühüm amil: dil, el – dövlət (Uruk), inam (Tənqri, Tanrı) Şumer və müasir türk xalqlarının bir kökə bağlı olduğu fikrini söyləməyə əsas verir. Belə bir səsləşməni beş min illik bir vaxtı, məsafəni keçib gələn və dəyişməyən üç mühüm mənəvi amili dünya xalqlarının heç birində tapmaq mümkün deyildir" [4, 76].

Qeyd etmək istərdik ki, qədim türk yazı – həkketmə mədəniyyəti özündə bu üç mənəvi amili çox mükəmməl şəkildə əks etdirmiş, birləşdirmişdir. Belə ki, qədim türklər öz yazılarını öz mənəvi keyfiyyətləri – qədim türk cəngavərlik rəmzləri, inam və etiqadları, həyat tərzinin ən mühüm və etnik keyfiyyətlərini təmsil edən atributlar, ov alətləri, onları əhatə edən ətraf mühitlə bağlı işarələr əsasında qurmuşlar:

↓↑ (ox şəkli) – qədim türk həyat tərzinin mühüm silahı: k hərfi və "ok"(ox) sözü. ☽

(yay şəkli) – türk həyat tərzinin ilk mühüm silahı: y hərfi və "yay" sözü.

(süngü, qılınc şəkli) – türk cəngavərlik rəmzi, silahı: yumşaq, incə ( ) və qalın s ( ) hərfləri

A (çadır, alaçıq şəkli)- qədim türk köçəri həyat tərzinin rəmzi: qalın b hərfi.

» (böyrü üstə qoyulmuş çadır, alaçıq şəkli) – köçməyə, başqa yerə yığışmağa hazırlıq rəmzi: m hərfi.

☺ (tam və yarımçıq ay şəkli) – türklərin Aya inanc rəmzi: nt/nd qoşa hərfi, diftonqu.

Orxon-Yenisey, Tonyukuk abidəsi

Orxon-Yenisey əlifbası

Türklər öz yazılarını qayalar, gil lövhələr, sal daşlar, heykəllər üzərində həkk edərək sanki gələcək nəsillərə öz möhtəşəm tarixləri, mədəniyyətləri haqqında məlumatı ötürmək üçün əbədiləşdirməyə çalışmış, unudulmasını istəməmişlər.

Türklərin ilkin beşiyi Ön Asiya – Azərbaycanda da qədim yazı nümunələrinə qədim türk yaşayış məskənləri Qobustanda, Gəmiqayada, Kəlbəcərdə, Laçında, Zəngəzur mahalının Meğri rayonundakı Qarqar dağında, Borçalının Loru mahalında, Türkiyə sərhədində yerləşən Kalinino rayonunun Cücəkənd yaşayış məntəqəsində, Gəncə, Şamaxı, Mingəçevir, Hacıqabul, Pirallahı adası, Nüvədi və Təbriz – Əhər yaxınlığında, İçərişəhər qabları üzərində rast gəlmək mümkündür.

"Gəmiqaya-Qobustan əlifba işarələrinin Azərbaycanın digər ərazilərində də aşkarlanması faktı sübut edir ki, bu qədim Azərbaycan əlifbası e.ə minilliklərdən eramızın I minilliyinin 8-9-cu əsrlərinə qədər, xüsusən ərəb işğalına qədər Azərbaycanda, Yaxın və Orta Şərqdə, nəhayət, Avropada yayılmış, işlənmiş, öyrənilmişdir. Bu əlifbalarla çoxlu dastanlar, tanrıçılıq inamı ilə bağlı boylar, hekayələr, bayatılar, atalar sözləri, müdrik kəlamlar qeydə alınmışdır" [8, 14]. V. Əliyev Gəmiqayadakı qayaüstü rəsmlərdə qədim yazı işarələrinə təsadüf olunduğunu, eyni zamanda onlar arasında tayfa nişanları və damğaları axtarmağı məqsədəuyğun hesab etmişdir [6]. Qobustan və Gəmiqaya əlifbalarının tədqiqatçısı Ə. Fərzəli Qobustanda və Gəmiqayada qədim əlifba işarələrini aşkar etdikdən sonra həmin əlifbanı piktoqrafik yazı sırasından çıxarmışdır.

Tədqiqatçılar etiraf edir ki, Azərbaycanda Orxon-Yenisey əlifbasının nümunələri aşkar olunmamışdır [8, 14]. Azərbaycan ərazisində aşkar edilmiş abidələrdəki yazı işarələri isə Azərbaycan xalqının öz düşüncəsinin, fəlsəfi dünyagörüşünün məhsuludur. Mərkəzi Asiyada mixi yazılara rast gəlinmir. Belə ki, Orxon-Yenisey səsləri Azərbaycan əlifbasının səsləri ilə eynilik

yaratmır. Yeriyən A, P hərfləri, çoxçalarlı F hərfi, bilavasitə suyu bildirən θ hərfi; "Orxon- Yenisey" də olmayan T, III və başqa işarələr, Gəmiqaya -Qobustanda səkkiz və ulduz işarələrinin bolluğu və başqa yerli əlamətlər Gəmiqaya-Qobustan əlifbasını Orxon-Yeniseydən fərqləndirir" [8,15].

Orxon-Yeniseydə olan yazı işarələrini ifadə edən piktoqraflar gözlə görünəni ifadə edir. Gəmiqaya-Qobustandakı yazı işarələri isə sirlidir, sanki kodlaşdırılıb.

Gəmiqaya-Qobustan əlifbasının tədqiqatçısı Ə. Fərzəli belə qənaətə gəlmişdir ki, Orxon-Yeniseydə yazılar, işarələr yalnız görünən şərtiliklə bağlıdır. Gəmiqaya-Qobustanda isə bir sirlilik var, yazı işarələri səslərə, yəni səslər piktoqrafların məzmununa uyğundur və məzmuna – koda yaxındır. O, tanrıçılıq inamına, əzəli od – su ikiliyi, ucalıq – dəqiqlik prinsipinə əsasən mifolji ardıcıllıqla Gəmiqaya-Qobustan sirlərini, işarələrin aid olduğu səsləri müəyyən etmişdir.

Gəmiqaya-Qobustan qayalarındakı səsləri ifadə edən işarələr həmin piktoqrafların məzmunu ilə çox uyğundur. F.Engels "Təbiətin dialektikası" əsərində yazır ki, insanlar dialektikanın nə olduğunu bilmədikləri vaxtda dialektik düşünmüşlər. Azərbaycan yazısının yaradıcıları da tələffüz zamanı fonemlərin təbii yaranma prosesini izləyərək dilin işarələr sistemini yaradarkən, səslərin ağızda səslənməsinin gerçək şəklini çəkməklə onları əhatə edən, müşahidə etdikləri əşyaların, hadisələrin məzmununu əks etdirən piktoqrafları yaratmışlar:

- O səsinin tələffüzü zamanı dodaqların dairəvi forma almasının şəkli – O hərfi;
- θ səsinin tələffüzü zamanı dodağın dairəvi şəklinin ortadan bölünməsinin şəkli – θ hərfi;
- İ səsinin ağızdan düz və ensiz şüa kimi çıxması şəkli – i hərfi.

Bu hal sait və samitlərin müəyyən qismində də müşahidə olunur. Göründüyü kimi, Azərbaycan dili səslərinin bir qismi on min illər əvvəlki sabitliyini indi də saxlayır. "Dildəki səslər-zahirən adi görünən bu vahidlər ecazkar qüvvə potensiyasına malikdir" [1,3]. Gəmiqaya-Qobustan yazı işarələrinin səslərə və məzmuna yaxın olduğu görünür. Buradakı hərfləri ifadə edən piktoqraflar mifik kodlara malikdir. Gəmiqaya-Qobustan piktoqrafları xalqımızın qədim dünyagörünüşünü əks etdirir. Deməli, bu rəsm və işarələr "ovçuların və çobanların əl işləri" olmayıb, "istedadlı rəssamlar və bilicilər tərəfindən qayalar üzərində bədii – həndəsi – riyazi dəqiqliklə yazılmış, həkk edilmişdir, sözlü işarələrdir" [7, 6]. Gəmiqaya-Qobustan yazılı işarələri yer– göy əlaqələrini, Günəşin, Ayın, ulduzların müşahidəsindən yaranan bilikləri, kosmik düşüncəni, ətraf mühiti əks etdirir. "Tanrıçılıq, odsevərlik" inamına əsasən soldan – sağa – Od tanrıya – Günəşə sarı yazılıb [8, 18].

Əzəli və əbədi od – su ikilisindən ucalıq – dəqiqlik prinsipinə uyğun yaranmış işarələr əsasən bunlardır:

Ɵ – su, + - od => O (od və su) – Ɵ – kiçik su (göl), kiçik su dalğası;

M – böyük su, çox su (dəniz), uzun dalğa;

A – göy öküzünün (öküz bürcünün) başı, piktoqrafı. A hərfinin çevrilmiş şəkli - ∨ "alov" sözü (öküz bürcü od ünsürüdür);

A – adam, sanki yeriyən adam;

B – buta forması, başlanğıcdan törəmə, həm də "insan" piktoqrafı;

L - əl, ayaq piktoqrafları;

O – Yerin və Günəşin piktoqrafı.

Deməli, Yerin yumru planet (O) olması, bu ərazinin sakinlərinə qədim türklərə 8 – 10 min əvvəl bəlli olub. "Gəmiqaya-Qobustan" abidələrində "göydən gələn adamlar"ın təsvirlərinə də rast gəlinir. Qobustan qayalarında belə təsvirlər daha çoxdur. Doğrudanmı ulularımız "göydən gələn adamlar"ın, yadplanetlilərin rəsmini çəkiblər? Belə əlaqə olubmu, yoxsa təxəyyülün məhsuludur? Bəlkə bu təsvirlər "göydən gəlmə" yazı işarələri, onu çəkənlərin düşüncələrinin, təsəvvürlərinin, xəyallarının əksidir. İstənilən halda cavabdan asılı olmayaraq bu yazılar e.ə. VIII – VI minilliklərdə Azərbaycan ərazisində mədəniyyətin inkişafından, dünyagörüşünün səviyyəsindən, inam və etiqadından, eyni zamanda yüksək yazı mədəniyyətindən xəbər verir. Bu inam və etiqadların kökləri isə "Avesta"ya gedib çıxır. O vaxta qədər Cənubi Azərbaycanın və indiki İranın müəyyən əraziləri Madanın tərkibində olmuşdur. E.ə. 550-ci ilə qədər Mada Azərbaycan mağlarının başda durduğu bir dövlət, böyük bir imperiya olmuşdur [12, 249]. Mağlar dünyanın və Azərbaycanın ən qədim tayfalarından biri olmuşdur. Mağların vətəni indi bir h issəsi Şimalda, bir hissəsi Cənubi Azərbaycan

ərazisində olan Muğan olmuşdur. Qədim dünyanın ən bacarıqlı adamları olan babalarımız mağlar xüsusi hərəkətlər və sözlərlə insanlara təsir etmişlər.

Mağların dini totemlərdən, animizmdən, fetişizmdən mütərəqqi olub, tədricən səma allahlarına və oradan təkallahlığa aparan yolun ən mühüm nöqtəsində dayanmışdı. İnsanlar arasında təbiətə, aya, günə, ulduzlara, torpağa, suya sitayiş güclənmiş, nəslin, qəbilənin başçısına sitayiş ilahi qüvvələrə-allahlara sitayişə çevrilmişdir. Təsviri incəsənətin inkişafında da mağların böyük rolu olmuşdur. Mağlarla bağlı bütün izlər də Azərbaycandadır.

Deməli, Azərbaycan ərazisi ən qədim yaradıcı insanların məskəni olmuşdur. Şumerlər çoxallahlı idilər. Çoxallahlılıq magiyadan sonrakı hadisədirsə, deməli, mağ mədəniyyəti daha qədimdir və mağlar Şumer mədəniyyətinin inkişafına təkan verə bilmişdir. E .ə. IV əsrdə Şimali Azərbaycanda Albaniya, cənubda Atropatena dövləti yarandı.

Q. Kazımovun fikrincə mağ və qam sözləri bir kökdəndir. Qamlar maqların sonrakı nəsilləridir. Herodot Qa(u)matanın mağ olduğunu qeyd edir. KAHin sözünün də formalaşmasına səbəb olmuşdur. Deməli, "Kitabi-Dədə Qorqud" da Qam Gan oğlu xan Bayındır öz kökünü ulu əcdadları Mada mağlarından almışdır. [12, 264]

Diogen yunan mənbələrinə (Ərəstunun "Maqlar haqqında", Dionun "Tarix" əsərinin V kitabına və Hermodora) əsasən Zərdüştün ulduzlara sitayiş etdiyini söyləyir: "Onlar cadugərliklə məşğul deyildilər, maqların əvvəlincisi ulduzlara sitayiş edən Zərdüşt olmuşdur" [29,65].

Bakının simvoluna çevrilmiş, əfsanəvi, sirli Qız qalası - İçəri şəhər kompleksi kahin maqların min illər boyu gizli saxladıqları Yaranış və Kainat haqqında fəlsəfi baxışları özündə əks etdirən sənət möcüzəsidir [5,36].

Tədqiqatçılar Qız Qalasının tarixi təyinatının, arxitekturasının sirlərini açmağa çalışmış, bir qismi onun yaranışını kosmosla bağlayır, digərləri isə ulu babalarımızın kosmik düşüncələrinin məhsulu kimi qəbul edirlər. Istənilən halda Qız qalası - İçəri şəhər abidə kompleksi yüksək mədəniyyətin, eyni zamanda yazı mədəniyyətinin tərkib hissəsi kimi möhtəşəm abidədir.

İçəri şəhər və Qız qalası Ulduzlu göyün simvolu kimi yaranıb. Bu ideya əvvəlcə onun yaradıcılarının fikir və düşüncələrində yaranıb, Qobustan qayalarında əks olunub. Qobustandakı Ulduz hərflərin işarələrinin 15 olması faktı buna tam əsas verir: " Bu inam və etiqadın kökləri də "Avesta"ya gedib çıxır. İçəri şəhərin 14 qala bürcü və 15-ci bürcün Qız qalası olması; hələ Xəzərin ləpələri Qız qalasının divarlarını döyəclədiyi vaxtlarda Qız qalası və İçəri şəhərin əksi dənizdə bütövləşəndə 14 qala bürcünün dənizdəki əksi ilə birlikdə 28 olması da kosmik düşüncələrin məhsuludur: Ayın 28 gün ərzində öz səyahətini başa vurması, Qız qalasının 28 metr hündürlükdə olması, adının Qız (Venera) planeti ilə bağlı olması və s. [5,8]. Deyilənlərə görə Qız qalası ilk əvvəl rəsədxana kimi nəzərdə tutulub, hətta onun yad planetlilər tərəfindən tikildiyi də söylənilir. Zərdüştü, zərdüştlüyü bu torpağın yetişdirməsindən xəbər verir. Odlar yurdu adlanan Azərbaycan da sanki zərdüştlüklə yoğrulub.

Bakı, Qız Qalası

Bakı, İçərişəhər

Yuxarıdan baxarkən Qız qalasının 9, "buta" formasında olması ulu əcdadlarımızın kosmik düşüncələrinin modeli, yaradılış abidəsinin simvolu kimi heyrət doğurur. Qala qapısının üstündə iki

şir və ortada bir öküzün təsviri verilib. Martın 21-də öküz bürcünün döyüşdə öz yerini şir bürcünə təhvil verməsi (qışın yaza təslim olması) Qobustanda Novruz bayramı səhnəsində də təsvir olunub. Bu təbiət hadisəsi şumer qəhrəmanlıq dastanı "Enmerkar və Aratta ölkəsi", "Kitabi-Dədə Qorqud"da da əks olunub. Bütün bu faktlar, bir-birini izləyən və bir-birini tamamlayan bu piktoqrafik yazı işarələrinə Azərbaycanın bir çox yerlərində rast gəlinməsi; abidələrdə, dastanlarda əksi möcüzələrlə dolu, sirli yazı mədəniyyətinin bu ərazinin əzəli sakinlərinə məxsus olduğunu təsdiq edir. Sirrini qorumaq, başqalarından gizlətmək qədim yazılı abidələrimizin sanki başlıca səciyyəvi xüsusiyyəti olub. "Avesta"nın qoruyucuları mağlar da çox mühafizəkar idilər, sanki onlar "zərdüştlüyün Qərbdə yayılmasına ciddi müqavimət göstərirdilər" [18,61]. Buna görə mühafizəkar və məharətli mağlar artıq təkmilləşmiş Şumer mixi yazıları əsasında "Avesta"nın özünəməxsus əlifbasını yaradırlar. Bu da yazı mədəniyyətinin yüksək göstəricisidir. Əbu Reyhan Biruni "Avesta"nın yaradıcıları olan mühafizəkar mağların "başqalarının bu kitabdan bilik alma imkanı olmasın deyə, hərflərin sayı bütün başqa dillərin hərflərinin sayını ötüb keçir" – demişdir (18, 206). "Kitabi-Dədə Qorqud"da oğuzların da soykökü, mənsubiyyəti, inamı, etiqadı məxfidir, şifrələnib. Qazan xan öz soyunun "Ağ qayanın qaplanının erkəyinə"; "Ağ sazın (gölün) aslanına"; "əzvay qurd əniyinin erkəyinə"; "Ağ sunqur quşu erkəyinə" mənsub olduğunu söyləyir. Nağıllarımızda da sehrli 40 qapını açmaq, qaranlıq dünyadan işıqlı dünyaya çıxmaq bu düşüncənin təzahürü və davamıdır. Bu sirlər, işarələr N.Gəncəvi yaradıcılığında da davam edir. N. Gəncəvinin "İsgəndərnamə" poemasında makedoniyalı İsgəndər ruslarla üç dəfə döyüşür, halbuki tarixdən İsgəndərin ruslarla döyüşü məlum deyil. N.Gəncəvi yaradıcılığının təxəyyülünün məhsulu olan bu faktlar nəyə işarə edirdi? Nizami hələ öz sağlığında uzaqgörənliklə "Xosrov və Şirin" poemasında məzarının tamamilə uçub dağılacağını xəbər vermişdir. Isgəndər bəy Münşi "Aləmarayi – Əbbası"əsərində yazır ki, 1014 – cü ildən (yəni 1606 – cı il) Nizaminin məzarı tamamilə baxımsız qaldı. Gəmiqaya-Qobustan işarələrinin – hərflərin məzmunu sirlidir, sanki şifrələnib. Bu sirlərlə dolu möcüzə bizim dilimizin səslərinin ahəngində, musiqidə, memarlıqda, xalçaçılıqda, rəqslərdə əks olunub. Yalnız türk düşüncəsinin genetik daşıyıcıları olan xalq bu gizli kodları – piktoqrafları, səslərin harmoniyasını, ecazkar musiqini – muğamlarımızı, xalçalarımızdakı naxışların sirlərini, rəqslərimizdəki mənanı duya bilər. Zənnimizcə, müasir dövrümüzdə xalçalarımız, rəqslərimiz qədər gen yaddaşımızın, etnik düşüncə və soykökümüzün bu sirli möcüzələri olannaxışları və işarələri – piktoqrafları özündə yaşadan və təbliğ edən başqa ecazkar qüvvə yoxdur. Başqaxalqlar nə xalçalarımızı, nə də rəqslərimizi "oxuya" bilir, "sirrini" bilir. Azərbaycan xalçaları qədim yazı mədəniyyətinin daşıyıcıları, tərkib hissəsidir.

Şirvan xalçası

Qarabağ xalçası

İrəvan xalçası

Azərbaycanda yazı – həkketmə mədəniyyəti çox qədimdən yüksək inkişaf səviyyəsinə çatmışdır və Azərbaycan ərazisində hətta yazı-həkketmə mədəniyyətinin fərqli üsullarına rast gəlinir. Gəmiqaya-Qobustan, Kəlbəcər qayalarında yazılar oyma (qazıma) üsulu ilə yazılıb. 1998-ci

ildə Naxçıvanın Dəmirçi kəndində tapılmış daşlarda – abidələrdə isə qabartma üsulu ilə yazılıb. Bu yazı – həkketmə mədəniyyətinin çox qədimdən yüksək inkişafının göstəricisidir.

Beləliklə, çox qədim və yüksək mədəniyyət nümunəsi olan Azərbaycan yazı mədəniyyəti başqa türk yazılı abidələrindən "müasirliyi" ilə seçilsə də, çox qədim və yüksək mədəniyyət nümunələri kimi, eyni zamanda yüksək intellektin, dərin məzmunun, incə zövqün abidəsidir.

Şumer, Gəmiqaya-Qobustan, Kəlbəcər, qədim Alban əlifbası türk düşüncəsinin məhsuludur və "türkcə" düşünmədən onları başa düşmək, düzgün oxumaq olmaz. Necə ki, Kəlbəcərin qaya rəsmləri və yazı işarələrini "erməni əlifbası" kimi təqdim edən bir erməni doktorluq dissertasiyası edərkən rus alimləri ona etiraz edir, bu yazı işarələrinin mövcud erməni əlifbasına qətiyyən oxşamadığını, "ermənicə" oxunmadığını bildirirlər. Qədim yazı nümunələri yalnız qayalar, daşlar, gil lövhələr, gümüş, qızıl qablar üzərində həkk olunmayıb. Dövlətlər, xalqlar arasındakı əlaqə və münasibətlərin, tarixi və mədəni inkişafın yazıya alınması üçün daha çox dəri, parça və kağızdan istifadə olunub. Zaman-zaman fələyin rüzgarları əsdikcə tarixin qaranlıq və dərin qatlarında (bəlkə də taleyin hökmü ilə yadelli işğalçılardan gizlətmək üçün) itib-batmış sal daşlar, qızıl, gümüş qablar üzərində, kitabələrdə, gil lövhələrdə türkün tarixini əks etdirən zəngin mədəniyyətin nümunələri gəlib üzə çıxır, bizə çatır. Bunlar qədim türk yazı mədəniyyəti nümunələrinin çox cuzi hissəsidir. Qədim əlifba ilə yazılmış nə qədər tarix kitabları, bədii əsərlər və s. yadelli işğalçılar tərəfindən məhv edilib, talan edilərək aparılıb. Bu talanlar neçə minilliklərdir davam edir. Strabonun "Coğrafiya", Arrian, Plutarx və Diodorun əsərlərindən, M. Kaşğarlının "Divan"ındakı hekayələrdən məlum olur ki, dünya fəlsəfəsinin ilkin başlanğıcı olan "Avesta"nın on iki min inək dərisinə yazılmış "nask"dan (hissədən) ibarət əlyazması olub. Isgəndər yunan fəlsəfəsinin öz əsasını "Avesta"dan götürdüyünü bildiyi üçün əsası, ilk mənbəyi "Avesta"nı yandırıb, kahinləri kütləvi məhv etdirib, çünki kahinlər bu əsərlərin canlı kitabları, daşıyıcıları idilər. "Avesta" ümumən 21 cilddən (bütövlükdə 815 fəsildən) ibarət imiş. "Nask" adlanan bu cildlərin ilk yeddisi dünyanın və insanın yaranmasına, yeddisi əxlaq, hüquq və dini qanunlara, son yeddi cild isə təbabət və astronomiyaya həsr olunub. Dünyanın yaradılışı (Tanrıdan, Od, Su, Torpaq, yəni havadan) insanın yaranması, göylərin yerlə qovuşması fəlsəfi dünyagörüşü "Avesta"da olduğu kimi, "Bilqamıs"da, "Orxon-Yenisey"də də əks olunub. "Üzə Gök Tənri asra yağız yir qılıntukda ekin ara kişi oğlı qılınmış – Üstümüzdə Göy tanrı aşağıda Yerlə qovuşduqda ikisinin arasında insan oğlu doğulmuşdur" [9,1].

Yunan mənbələrində isə, məsələn, smirinli Hermodor və Hermipp Zərdüştün Troya müharibələrindən beş min il əvvəl, Ərəstunun (Aristotelin) müəllimi Platonun ölümündən altı min il əvvəl, Ksanf isə Kserksin Yunanıstana basqınından altı min əvvəl yaşadığını qeyd etmişlər.

Eləcə də eranın ilk əsrlərində qədim Azərbaycan dövlətinin adı ilə adlandırılan Alban əlifbasının, yazıların da taleyi eyni olub: "erməni Qriqoryan kilsəsi Bərdə şəhərinin çox zəngin kitabxanasını, oradakı bütün qiymətli kitablar və əlyazmalarını yandırıb, külünü Tərtər çayına axıdıb"[14]. Isgəndər dünya fəlsəfə elminin başlanğıcının Yunanıstana aid etmək üçün, ermənilər əlifbanı mənimsəmək üçün bu cinayətə əl atıb. F. Məmmədova öz tədqiqatlarında bu faktı sübut edir: " V – X əsrlərdə Alban ədəbiyyatı alban dilində yazılıb. Sonra hamısı ermənicəyə çevrilib və əsli məhv edilib" [16, 3, 33, 35]. Ərəb işğalçıları da belə edib. Ingilis alimi D. Uilber yazır: "Elə ki, ərəblər İranı işğal etdilər, əksər farslar islamı qəbul elədilər. Kim ki, köhnə inamı (zərdüştlük nəzərdə tutulur) saxladı, Hindistana köçüb getdi, onları orada fars adlandırmağa başladılar, qalanları isə İranın ayrı-ayrı yerlərində (Tehran, Yezd və Geranda) gizli şəkildə öz dinlərini saxladılar" [30,4].

E. Əlibəyzadə dünyanın məşhur alimlərinin tədqiqatlarına əsasən belə qənaətə gəlir ki, ərəblər türk dünyasını fəth edərkən ona üç ağır zərbə vurdular: 1)ilk növbədə türkün vahid kökünə balta çalıb onu parça-parça etdilər, onun vahidliyini pozdular...; 2) türkün inamını qırdılar...; 3) türkün qədim və tarixi- milli əlifbası – yazı mədəniyyəti itirildi, məhv edildi [3, 86].

Elə bu səbəbdən biz yazının sonrakı mərhələlərdəki vəziyyətini əks etdirən yazı nümunələri haqqında söz deyə bilmirik. XIX əsrin 80-85-ci illərində bir dəstə fransız şeyx Nizami məzarını özbaşına qazaraq bir sıra naxışlı daşları və əntiqə şeyləri aparmaq istəyir. Hacıbəyli kəndinin əhalisi onlara mane olur. Fransa dövlətinin çara şikayətindən sonra böyük Nizaminin məzarından götürülmüş qiymətli əşyalar əhalidən geri alınıb fransızlara verilir [9,3].

Azərbaycan əlyazmaları ilə məşğul olan fransız səyyahı E. Bloşe "Türk əlyazmaları kataloqu" kitabında bir əlyazmadan danışarkən göstərir ki, bu əlyazmasında Nizami, Fəddi, Ətai, Fəthi, Nəsimi və b.-nın türkcə şeirləri saxlanmaqdadır [9,3]. Azərbaycan qədim yazı mədəniyyətinin soyqırımı müasir dövrümüzdə də davam etmişdir. Kəlbəcərin işğalından sonra Kəlbəcərin qaya rəsmləri və yazı işarələrinin ermənilərin öz adına çıxması buna sübutdur.

Gəmiqaya-Qobustan əlifbası ilə Orxon-Yenisey əlifbalarının müqayisəsi də maraqlıdır. Bu müqayisə ilk öncə belə qənaətə gəlməyə imkan verir ki, onlar fərqli əlifbalardır. Bu abidələrdə yazı işarələri yaradılarkən onlara yanaşmanın özü fərqlidir. Orxon-Yenisey yazısı türk həyat tərzinin, cəngavərlik rəmzinin simvolunu (çadır, yay, ox, süngü, qılınc) təsvin edən işarələr əsasında yaranmışdır. Gəmiqaya-Qobustan yazıları isə fəlsəfi düşüncə, inam, etiqadı simvollaşdıran işarələr əsasında yaranıb.

Gəmiqaya-Qobustan abidələrindəki işarələr, səslər daha çox müasir dövrlə səsləşir. İlk öncə belə təəssürat yaranır ki, Orxon-Yenisey əlifbası daha qədimdir. Səsləri ifadə edən işarələr (yay, ox, süngü, qılınc, çadır, alaçıq) daha ilkin, ibtidai başlanğıcdan xəbər verir. Kosmik düşüncə, Günəş, Ay, ulduzlar, göydən enən adamlar, şifrələnmə, məxfilik və s. daha sonrakı, inkişaf etmiş dövrün, təfəkkürün, sanki sivil dünyanın məhsuludur. Lakin tarixi mənbələrdəki məlumatlar, dünyanın məşhur alimlərinin tədqiqatları, faktlar ("Avesta"nın dünya fəlsəfəsinin ilkin başlanğıcı olması;Zərdüştün ulduzlara sitayiş etməsi və s.) Gəmiqaya–Qobustan yazılarının, Orxon-Yenisey"dən sonrakı sivilizasiyanın; yaxud ondan götürülmə olduğu fikrindən daşındırır. Bəlkə də, daha qədim olması qənaətinə gətirir. Əlbəttə, burada mütəxəssislərdən gözləntilər çoxdur, daha ciddi araşdırmalar gözlənir. Amma araşdırma və düşüncələr belə qənaətə gəlməyə imkan verir. Gəmiqaya–Qobustanda hərfi ifadə edən yüzə yaxın işarə var. Bu əlifba ilə yazılmış bütöv mətnlər hələlik əldə edilməmişdir. Lakin Şumerli türk (şumer) əlifbasının azı altı min il əvvəl mövcud olduğu məlumdur. "Gəmiqaya-Qobustan Şumerli türk əlifbası ilə bütün hərfləri və piktoqrafları ilə tən gəlir [8, 16]. İ. Cəfərzadə hesab edir ki, Qobustanda rəsmlərin cızılması e.ə. VIII minillikdən – bizim eranın II minilliyinin əvvəlinədək davam edib [7].

Uzun müddət Gəmiqaya-Qobustan yazıları üzərində ciddi tədqiqatlar aparan Ə. Fərəzli belə qənaətə gəlib ki, Orxon-Yenisey səsləri Azərbaycan əlifbasının səsləri ilə eynilik yaratmır. Bu qədim Altay türklərinin dili ilə Azərbaycan dilinin səsləri arasında fərqlə bağlı ola bilər. Orxon-Yeniseydə yalnız görünən şərtilikdən danışmaq olar. Gəmiqaya-Qobustanda isə yazı işarələri səslərə və məzmun – koda daha yaxındır. Orxon-Yeniseylə müqayisədə Gəmiqaya-Qobustanda hərflər daha tamdır, bütövdür. Gəmiqaya-Qobustan əlifbası belə bir həqiqəti təsdiq edir ki, əlifba uzun illərin təcrübəsindən, sınaqlarından keçərək insan kollektivinin, etnosun – xalqın soy psixologiyasına, dünyagörüşünə, dil və din birliyinə əsaslanaraq, piktoqraflar – şəkilli sözlər, damğalar, rəmzlər toplusundan seçilərək, bir sapa düzülərək, formalaşaraq yaradıla bilər. Əlifba məhz əlifba kimi formalaşana qədər bir neçə mərhələdən keçir. Azərbaycan ərazisində tapılmış Gəmiqaya, Qobustan, Kəlbəcər, Mingəçevir və s. qədim yazılı abidələr "Avesta"dan, şumer (türk) oxşəkilli yazılarından bu yana hamısının eyni etnosun – xalqın inam və etiqadının, dünyagörüşünün təzahüründən yaranmış yazı mədəniyyətinin nümunələri olduğu görünür və bir qədər irəli gedərək demək istərdik ki, müasir əlifbaların əsasında qədim türk düşüncəsinin məhsulu olan əlifbalar dayanır.

ƏDƏBİYYAT

1. Axundov A. "Azərbaycan dilinin fonetikası" Bakı, Maarif, 1984.
2. Cəfərzadə İ. "Qobustan" jurnalı, 1973.
3. Əlibəyzadə E.M. "Azərbaycan dilinin tarixi" I cild Bakı, Azərbaycan Tərcümə Mərkəzi, 2007.
4. Əlibəyzadə E.M. "Avesta" Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir. Bakı, Yurd, 2005.
5. Əliyev R. Məxfilik qrifi, yaxud "mif, fəlsəfə, din və dil düyünü". Bakı, Ziya – Nurlan, NPM 2002.
6. Əliyev V. "Gəmiqaya abidələri" Bakı, 1992.
7. Əsgərov Ş. "Kəlbəcər Qobustanı", "Qobustan" jurnalı, 1985, № 2.
8. Fərzəli Ə. Ə. "Gəmiqaya – Qobustan əlifbası". Bakı, Nəşriyyat – Bakı Poliqrafiya birliyi, 2003.

9. Hüseyni Ə., Sərkar Ə. "Nizami məzarının sirləri". "Bakı" qəzeti, 11 oktyabr, 1982.
10. Hüseynzadə Ç., Rəhmanov C. Dil norması və kriminalistika. Bakı, Nurlan, 2005.
11. Ismayılova M. Azərbaycan dili və nitq mədəniyyəti. Dərslik.I cild. Bakı, 2016.
12. Kazımov Q. Ş. Azərbaycan dilinin tarixi (Ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı, Təhsil,2003
13. Xəlilov B. Müasir Azərbaycan dili. Bakı, Nurlan, 2007.
14. Kalankatuklu Moisey. Albaniya tarixi. Bakı, Elm, 1993.
15. Qurbanov A.M. Ümumi dilçilik. Bakı, Maarif, 1977.
16. Məmmədova F. Qafqaz Albaniyasının siyasi tarixi və coğrafiyası (e.ə III – y.e VIII əsrlər). Bakı,1986.
17. C. Ə. Rəhmanov, T. Z. Abdullayeva Azərbaycanda əlifba islahatları və xəttin təkamülü məsələri.Bakı, 2002.
18. Бируни А.Р. Избранные произведения. Т. II, изд. АНУССР, Ташкент, 1957.
19. Бойс М. Зороастрийцы. Верование и обычаи. Москва, Наука, 1987.
20. Булли Л. Ур Халдеев. Москва, Восточная литература, 1961.
21. Головин Б.Н. Введения в языкознание. Москва. 1977.
22. Дьяконов И.М. К возникновению письма и Двуречье. Москва. 1976.
23. Дьяконов И.М. Предисловие // Тайны древних письмен. М. 1976.
24. Каганкатватси. История Албан. СПБ. 1840.
25. Климов Т. А. Вопросы дешифровки албанского (Кавказско-албанского письма). Москва,ТДП, 1970.
26. Климов Г. А. Тайны древних писем. Москва, 1976.
27. Крамер С. Н. История начинается в Шумере. Москва, Наука, 1965.
28. Косидовский З. Библийские сказания. Москва, Пол. Литература, 1975.
29. История албан Моисея Каганкатваци, писателя X в, пер. К. Патканьяна, СПБ, 1861.
30. Лаэртский Д. О жизни учениях и изречениях знаменитых философов. Москва, Мысль, 1979.
31. Уилбер Д. Персополь, Москва, Наука, 1971.
32. Элизе Реклю Человек и земля. Т 1. изд. Брокгауз Ефрон, СПБ. 1906.